**Ukrayna Ali Radasının komitə sədri: COP29 bütün region üçün böyük əhəmiyyətə malikdir**

Bu ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransı həm Azərbaycan, həm də bütün region üçün böyük əhəmiyyətə malikdir.

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində Ukrayna Ali Radasının İqtisadi inkişaf komitəsinin sədri Dmitri Nataluxa bildirib.

Ukraynalı deputat deyib: "Şotlandiyada keçirilən iqlim konfransında (Qlazqoda COP26, 2021-ci il – red.) şəxsən iştirak etmişəm və belə bir tədbirin ona ev sahibliyi edən ölkə üçün nə qədər qlobal əhəmiyyət kəsb etdiyini başa düşürəm. Bu, böyük diqqətin əlamətidir, eyni zamanda, investisiya ilə bağlı potensial danışıqlar, bərpaolunan enerji sahəsində qabaqcıl mövqe - qlobal liderlik üçün bir təklifdir. Azərbaycanda bütün bunlar mövcuddur. Bu, ona iqtisadi və enerji baxımından yeni liderlərdən biri kimi güclənməyə kömək edəcək əlavə potensialdır. Biz də COP29 iqlim konfransına böyük ümid və tərəfdaşlıq perspektivləri prizmasından baxırıq".

Deputat vurğulayıb ki, Kiyevdə bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı arasında energetika kabeli ilə bağlı Sazişin imzalanması xəbərini böyük maraqla qarşılayıblar.

Dmitri Nataluxa qeyd edib: "Ukrayna təbii ki, Azərbaycandan elektrik enerjisi və enerji məhsullarının istehlakçılarından birinə çevrilməkdə maraqlıdır. Bu, xüsusən də Rusiya ilə müharibəmiz və enerji böhranı fonunda aktualdır. Aydındır ki, biz yeni mənbələr axtarırıq. Azərbaycan Ukraynanın çoxdankı tarixi tərəfdaşı və dostudur, eyni zamanda, enerji baxımından da ticarət tərəfdaşı kimi çıxış edə bilər".

Deputat diqqətə çatdırıb ki, Ukrayna qaz və elektirk enerjisinin tranzit nəqli ölkəsinə də çevrilə bilər. O əlavə edib: "Ümidvaram ki, fürsətdən istifadə edərək bu kabelə qoşula və beləliklə, hər hansı bomba və ya təcavüzkardan asılı olmayaraq, elektrik enerjisinin tamamilə avtonom mənbəyini əldə edə bilərik. Müvafiq olaraq, Azərbaycanın bu dayanıqlı inkişafa, yəni dayanıqlı enerjinin davamlı inkişafına diqqət yetirməsi böyük bir faktordur və bu, çox mütərəqqi prosesdir. Bu, ona gələcəkdə istənilən çağırış və təhdidlərə məhəl qoymamağa imkan verəcək bir amildir, həm də bölgədəki vəziyyətdən və yaranmış hər hansı şəraitdən asılı olmayaraq. Biz bunu öz nümunəmizdə gördük; enerji istehsal sistemi nə qədər çoxşaxəlidirsə, küləkdən günəşə, nüvəyə, qaza, kömürə qədər mövcud mənbələr daha çoxdursa, bir ölkənin uzunmüddətli perspektivini və inkişafını planlaşdırması da o qədər asan olur. Eyni zamanda, ölkə hər hansı potensial problem qarşısında özünü daha inamlı hiss edir. Yaşıl enerjiyə dair ümumi qlobal kurs Azərbaycanın qarşısına qoyduğu ambisiya və perspektivlərə tamamilə uyğundur. Ukraynada çox şadıq və sevinirik ki, bizim belə tərəfdaşımız və etibarlı dostumuz var.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kiyev**

**AZƏRTAC**
**2024, 14 avqust**